

## ELVİN İNTİQAMOĞLU

**Elvin İntiqam oğlu Məmmədli** 1996-cı ildə Yardımlı rayonunun Horonu kəndində müəllim ailəsində anadan olmuşdur.

2014-cü ildə Sumqayıt şəhər 26 saylı tam orta məktəbi; 2018-ci ildə Sumqayıt Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir.

2008-ci ildən etibarən bədii yaradıcılıqla məşğul olmağa başlamışdır. 2009-cu ildə yazdığı «Ay qız, sevirəm, sevirəm mən səni» şeiri ilk qələm məhsulu; 2012-ci ildə «168 saat» qəzetində yer almış "Dünya" şeiri isə ilk mətbu nailiyyətidir.

«168 Saat», «Oxu məni», «Haqqın sədası» və s. ictimai-ədəbi qəzetlər; Azərbaycan Respublikası Təhsil Nazirliyinin aylıq "Təhsil" jurnalı; «Zirvə», «Xəzinə», «Sevgi





damlası» şeir toplusu və s. mətbu orqanlar bədii-ədəbi yaradıcılığına müraciət etmişdir.

XXI əsr (2000-2020 ) Azərbaycan poeziyasını özündə əks etdirən «Xəzinə» poeziya antologiyasının, qədim və çağdaş poeziyanın müqayisəli təhlilinə həsr olunmuş «Əsrlərə körpü» poeziya antologiyasının və hazırda oxuduğunuz gənc şairlərdən və şairələrdən (maksimum 40 yaş) ibarət «Yeni uğur» poeziya antologiyasının tərtibçisi və baş redaktorudur. Həmçinin, «Haqqın sədası» qəzetinin ədəbiyyat şöbəsinin müdiri vəzifəsində də fəaliyyət göstərir.

Ona yaxın filoloji məqalələrin müəllifi və ondan çox müəllifli şeir kitablarının redaktorudur.

### MƏN

*(avtobioqrafiya)*

Düşmənim oddur, suyam,
Öz sözümdə doğruyam...
Mən İntiqamoğluyam,
Məmmədovlardı nəslim!

Şairtəhər olsam da,
Bezmirəm yorulsam da...
Sumqayıtda qalsam da,
Yardımlıdandı əslim!

Dünya mənə lağ etdi,
Həddin aşdı ağ etdi...
Cismimi dustaq etdi,
Ruhum olmadı təslim!

O qız çıxandan yoxa,
Kədər buraxmır yaxa...
Çətin yadımdan çıxa,
Hörüklü incə səslim!

Yayda isti, qışda qar,
Payızda bol yağış var...
Yağış zövqümdən kənar,
Bahar sevimli fəslim!

## BOŞ DÜNYA

Təsəvvür et:
Yer qatı var, göy qatı var,
İnsan adlı canlı yoxdu...
Təsəvvür et:
Dünyanı yoxdan yaradan Tanrı var,
Palçıqdan insan düzəltmək istəyən
bir Tanrı yoxdu!

Təsəvvür et:
Nə Həvva var, nə də Adəm,





Nə də onlardan törəyən davamçılar...
Nə savab var, nə günah var,
Nə cənnət var, nə cəhənnəm!

Təsəvvür et:
İnsan əliylə qurulan bina yoxdu,
İnsan əliylə salınan meşə yoxdu...
Sənət yoxdu, peşə yoxdu:
Dünya çılpaqdı, lümlütdü,
Ona paltar tikən yoxdu...
Boş dünyanın boşluqların
Karandaşla çəkən yoxdu!

Təsəvvür et:
Bir-birini sevən yoxdu,
Xəyanət eyləyən yoxdu...

Tanrı boş-bekar dayanıb
göy üzündə
Şikayət eyləyən yoxdu!

Təsəvvür et:
Ölkə yoxdu, şəhər yoxdu...
Ərazilər ümumidir,
Müharibə edən yoxdu,
pozan yoxdu atəşkəsi...
Yoxdu şəhid qarşılayan ananın
qışqırıq səsi!

Təsəvvür et:
Şeytan vaxt öldürə bilmir,
Kimsə yoxdu hiyləsinə aldanacaq,
kimsə yoxdu səhv edəcək...
Vəzifədən çıxardacaq,
Tanrı onu məhv edəcək!

Gör necə sakitçilikdi,
İnsanların olmamağı dünya üçün
bol sevincdi...
Sən Allah, təsadüfə bax:
Dünya boşdu, insan dincdi,
İnsan yoxdu, dünya dincdi!

## SEVGİ XƏSTƏLİYİ

Sən gedəndən heçnə yolunda deyil –
Beynimə ayrılıq sızıb,
Yaddaşım itmək üzrədi...
Həkim hər gün yeməkdən bir saat sonra
Bir qaşıq təsəlli yazıb!

Bir az da diqqətlə baxsan alnıma,
Görəcəksən:
Yazılıbdır Allahın qələmiylə son yazı –
Eşq...





Damarlarım qan ağlayır sənsizlikdən –
Razılığa gələ bilmir
Ağ həsrət qırmızı eşq!

Zahirimdə daxilimi ifadə etdirmirəm mən –
Üzümdə dörd günlük gülüş,
Ürəyimdə dördhissəli qəm tapılıb...
Gəl, tanış ol son halımla –
Bu günlüyəm, sabahlığam,
Qismətimdə bədxassəli qəm tapılıb!

## BİR GÜNÜN TƏNHALIĞI

Bu evdə iki gün qabaq iki nəfər var idi –
İndi ancaq biri var,
Yetim qalıb elə bil...
Masanın üzərində çərçivəsiz, əzilmiş
Üçillik fotoşəkil...
Şəkil siqaret qoxulu,
Şəkil xatirə dolu –
Onu bir göz qırpımında
Tən ortadan bölüb parça-parça etmək asan deyil...
Şəkildə illərin izləri qalıb!

Bir nəfərin əlində bir qədəh şərab –
Gəzir otaqda ruh kimi...
Çıxıb gedən, gün gələcək, bu yanlara cüt gələcək,
Bu özünə gələnəcən...

Artıq zaman gec olacaq,
O itirdiyi zamanın qədrini tez bilənəcən...
– «Mən səninəm, səninləyəm,
Mən səni tək buraxmaram ölənəcən»,
– Heç olmasa gözləyərdin ölərdim də...
Yadında yarın son sözləri qalıb!

Yas saxlayır üç ilə,
Üzün qırxmır bu adam...
Əgər belə davam etsə intihara əl atacaq,
Gözlərindən hiss olunur:
Ölümdən qorxmur bu adam!

## AYRILIQ

Əzizim, ayrılıq görəndə bizi,
Çəkilərdi kənara –
Sən öyrətdin
Ayırmağın yolların ayrılığa...
İşığa and içirdin ki, səndən ayrı qalmaram,
Bir də belə səhv eyləmə...
Kor baxarsan işığa!
Şeytan deyir: – Götür balıq qırmağın,
Üz tut dəniz tərəflərə,
Yalvar-yaxar qayıqçının birinə,
Səni alsın qayığa...
Əlimdən heç nə gəlmir ki, təkrar əldə edim səni-
Üç arzumun üçü sən ol,
Ümid qızıl balığa!





## DÜBARƏ

Dünya uçub bərpa olsa,
Fələk çarxa bir də gələr...
Allah izin versə, bəşər
Qorxa-qorxa bir də gələr!

Başda ağ tük kalan olsa –
Qocalmısan, nişan olsa...
Əgər ruhun cavan olsa,
Yaşın qırxa bir də gələr!

Nəsil enər ucalmasa –
Davamçısı çox olmasa...
Şəhid sayı çoxalmasa,
Yeddi arxa bir də gələr!

## İMKANLI BƏY

Satırdılar dünyanı,
Bir imkanlı bəy aldı...
Dünya ona baş əydi,
Ancaq ondan rəy aldı!

Bəy tez düşdü atından,
Söz gəldi yer qatından...
Dünyanın ucbatından,
Hamıdan giley aldı!

Sahibin saldı ələ...
Dərd verdi bilə-bilə,
Güldürdü gülə-gülə –
Gah elədir, gah belə,
Dünya hərdəmxəyaldı!

## YANĞIN

Tanrı qadir hər şeyə...
Dünya dağılsın deyə,
Tapşırıq verər göyə...
Şimşək daşı yandırar!

Atasızdı ev-eşik,
Böyük qardaşdır keşik...
Evdən qovulsa kiçik,
Qan qardaşı yandırar!

Cəhənnəmdi planda,
Günahkaram cahanda...
Günahlarım o yanda
Uzaqbaşı yandırar!

Dostum, getsən yuxuya,
Dostun salar quyuya...
Ziyan dəyməz quruya,
Kibrit yaşı yandırar!





## SƏHV

Biz bu gün də səhv edirik,
Səhv təkcə keçmişdə olmur...
Cavankən etdiklərimiz
Əllidə, yetmişdə olmur!

Yalanda var əlli çalar,
Yalançı yaddaşda qalar...
Sözdə də səhv tapmaq olar,
Səhv ancaq səhv işdə olmur!

Axmaq qəm çəkir ikiqat -
Gedəndə yalnış gedişat,
Qorxur ki, bilər camaat...
Arifi etmir narahat,
Təlaşda, təşvişdə olmur!

Bölündü ölkə taybatay...
«Gülüstan»da verildi pay,
On beş il sonra «Türkmənçay...»
Səhv məgər sazişdə olmur?!

# GEDİŞAT

İtirilmiş zaman qəmdi büsbütün,
Saat ömrümüzdən alır nə üçün?!
Niyə iyirmi dörd saatdı bir gün,
Dəqiqə sürətlə gedə bilməzdi?!

Cənnət arzulayan şeytana uydu,
Harama, içkiyə ehtiyac duydu...
Şeytan onun ömrün pis günə qoydu,
Mənzilə niyyətlə gedə bilməzdi?!

İnsan qocaldıqca pisləşir halı,
Daş qutu, bir metr ağdı xəyalı...
Niyə burda qalır dünyanın malı,
Hamı var-dövlətlə gedə bilməzdi?!

Çıxır səmayacan məzlumun səsi,
Tanrım, neyləyirik ki, qəddar kəsi...
Yaradardın ya yaxşını, ya pisi,
Dünya bir düz xətlə gedə bilməzdi?!





# BƏŞƏR

Çox şeyə qadirdi bəşər...
Su məhv edirsə atəşi
Dəniz qədər su ver mənə,
Söndürüm yanan Günəşi...

Nərdivan gətirin mənə,
Boyumdan min metr uzun...
Səmanın başın aldadım,
Qoyum torpağa ulduzun...

Mənə göydən kəndir atın,
Alpinistlərə çevrilim...
Özümlə pozan götürüm,
Ayın parıltısın silim...

Şəhid rəsmi gördü gözüm,
Dözmədi dərdə, ağladım...
Düzün şəhid anaların,
Buludu yerdə ağladım!

# MÜQAYİSƏ

Göz yumanlar ayılsaydı,
Ölənlər diri qalsaydı,
Əzrayıl rüşvət alsaydı,
Boş qalardı məzar yeri...

Nəfsi Adəmin, Həvvanın
Qurbanı oldu buğdanın...
Ucsuz-bucaqsız dünyanın
Bəxtimə düşdü dar yeri...

Sevmək aşiqin xoş anı,
Həsrət ayrılıq nişanı.
Limanlar görüş məkanı,
Körpülər intihar yeri...

# ASILQAN

Zəhər şirinləşib ilan dəyişib,
Saat soldan gedir, zaman dəyişib,
Aman Allah, dünya yaman dəyişib
Söyüd ağacından bəhər asılıb...

Dünyanı ovcunda sıxıb əyəsən,
Səhvini üzünə bir-bir deyəsən.
Dünya bizlərə dərd verir, deyəsən,
Ekvator xəttindən kədər asılıb...





Qürursuz çoxunun qürurun əzib,
Arif olan ondan aralı gəzib.
Dünyanın axrıdır, dünyadan bezib
Boğazından milyon nəfər asılıb...

Dünyanı alan alıb, satan satıb,
Ona tabe olan arzuya çatıb.
Dünya çoxdan intihara əl atıb,
Göyün dirəyindən kəmər asılıb...

# QADINLAR

Qadın var ki, haqqı deyir,
Qadın da var, haqqı yeyir.
Qadın var ki, tez inciyir,
Qadın da var, dəmir kimi...

Qadın var ki, mah kimidi,
Qadın da var, ruh kimidi.
Qadın var ki, şah kimidi,
Qadın da var, əsir kimi...

Qadın var ki, şəfəq saçır,
Qadın da var, zülmət açır.
Qadın var ki, adam qaçır,
Qadın da var, şeir kimi...

## KASIBVARİ QORXU

İmkanı kəm kasıblarıq,
Təkəm-tükəm kasıblarıq...
Canı möhkəm kasıblarıq,
Xəstələnməyə qorxuruq!

Haram pul, tikə bilmirik,
Beşulduz tikə bilmirik...
Haqqı car çəkə bilmirik,
Güllələnməyə qorxuruq!

Güclə bir ev düşüb ələ...
Tanrı, yalvarıram hələ:
– Bizə göstərmə zəlzələ...
Silkələnməyə qorxuruq!

Bəxtimiz yoxdur...Söyüd ək,
Əssə təlatümlü külək,
Aşar düşər dizimizədək...
Kölgələnməyə qorxuruq!

## NİŞANLI QIZ

Yolunu gözləməkdən
Göz yorulub, bilirəm...
Yolun tən ortasına
Daş qoyulub, bilirəm!





Üç il keçib aradan,
İstəmədi Yaradan...
Mənim bəxtim anadan
Gec doğulub, bilirəm!

Məni salma yadına,
Getdin üzük badına...
Artıq gecdi, adına
Ad qoşulub, bilirəm!

Bizdən başqa, sevənlər
Xoşbəxt olub, bilirəm...
On dördüncü qızılgül
Çoxdan solub bilirəm!

## DƏRD ORTAĞI

*(gənc şair Ürvət Əfqanoğluna ithafən)*

Dünya yaman pis dəyişib,
Gəl, edək söhbət, qardaşım...
Artıq həzm edə bilmirəm,
Ay mənim Ürvət qardaşım!

Namazqılan var, hiyləgər -
Rüşvət alır, pul bəs qədər...
Tanrıdan ancaq, hər səhər
İstəyir cənnət, qardaşım!

İşğal olduq o yan-bu yan,
Sərhədi keçmək qadağan -
Nə Kəlbəcər, nə Zəngilan...
Barışdı millət, qardaşım!

Varlıda torba-torba pul,
Nə cür qazansın qara qul?
İşləmir ata, dörd oğul...
Ac qalır külfət, qardaşım!

Savadlının var lal dili,
Savadsızın yüz min ili...
Dünən basdırdıq təhsili,
Ruhuna rəhmət, qardaşım!

Sən də dünyadan nəsə yaz...
Beyninə zəhmət ver bir az,
Et qələminlə etiraz...
Təbinə qüvvət, qardaşım!